*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 214-223* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.214*

**Dilçilik**

# Azərbaycan dilində iki və üçsəsli sözdüzəldici şəkilçilər

**İslam Sadıq**
Filologiya elmləri doktoru
AMEA Nəsimi adına Dilçilik İnstitutu. Azərbaycan.
E-mail: islamsadiq1953@yahoo.com

**Annotasiya.** Azərbaycan dilində söz yaradıcılığının müxtəlif yolları var. Sait səslərin əvvəlinə və sonuna samitlərin qoşulması, hecaların təkrarlanması və yerdəyişməsi, sadə sözlərin birləşməsi, sözdüzəldici şəkilçilərin söz köklərinə artırılması və s. söz yaradıcılığında daha çox istifadə olunan yollardır.
Azərbaycan dili sözdüzəldici şəkilçilərlə olduqca zəngindir. Söz yaradıcılığında daha çox söz köklərinə sözdüzəldici şəkilçilərin qoşulduğu aydın görünür. Çünki bu yolla yaranmış sözlər Azərbaycan dilinin leksik fondunda çoxluq təşkil edir.
Bu məqalədə ilk dəfə olaraq Azərbaycan dilindəki daq, dək, dıq, dik, duq, dük, taq, tək, tıq, tik, tuq, tük sözdüzəldici şəkilçilərinin da, də, dı, di, du, dü, ta, tə, tı, ti, tu, tü şəkilçilərinin sonuna *q* və *k* samit səsləri artırılmaqla yarandığı göstərilmiş və onların iştirakı ilə söz yaradıcılığına aid çoxsaylı örnəklər verilmiş, həmin şəkilçilərin altı cür yazıldığı sübuta yetirilmişdir.
**Açar sözlər:** Azərbaycan dili, sözdüzəldici şəkilçi, altı cür yazılan şəkilçi, söz yaradıcılığı

**Məqalə tarixçəsi:** göndərilib – 11.01.2023; qəbul edilib – 31.01.2023

# Word-building suffixes written in two and three forms in the Azerbaijani language

**Islam Sadig**
Doctor of Philological Sciences
Institute of Linguistics named after Nasimi of ANAS. Azerbaijan.
E-mail: islamsadiq1953@yahoo.com

**Abstract.** There are different ways of word creation in Azerbaijani language. Connection of consonants to the beginning and end of the vowels, repetition and displacement of syllables, combination of simple words, to increase word alignment to word roots and so on are more commonly used in word creation.
There are a lot of word-building suffixes in the Azerbaijani language. On the basis of the word creation are standing word-building suffix joining of the word roots. Because the words formed in this way constitute the majority in the lexical fund of the Azerbaijani language.
In this article it is shown that daq, dək, dıq, dik, duq, dük, taq, tək, tıq, tik, tuq, tük word-building suffixes have been created by adding q and k consonant voice to the end of da, də, dı, di, du, dü, ta,

tə, tı, ti, tu, tü suffix and numerous examples are given belonging to word creativity with their presence, and it is proved that those suffixes were written in six forms.
**Keywords:** Azerbaijani language, word-building suffix, suffix written in six forms, word creation

**Article history:** received − 11.01.2023; accepted − 31.01.2023

## Giriş / *Introduction*

Azərbaycan türkcəsindəki sözdüzəldici şəkilçilər indiyə qədər tam öyrənilməyib. Akademik Həmid Araslı bu şəkilçilərin beş cür yazıldığını göstərmişdir [1, s.142]. Azərbaycan türkcəsindəki doqquz sait səsdən altısı sözdüzəldici şəkilçilər yaradır. Bunlar *a, ə, ı, i, u* və *ü* saitləridir [14, s.254-260]. Altı sait səsin əmələ gətirdiyi sözdüzəldici şəkilçilər məhz altı cür də yazılır. Araşdırmalar göstərir ki, yuxarıdakı altı sait səs demək olar ki, bütün samitlərin sonuna qoşularaq iki səsdən ibarət sözdüzəldici şəkilçilər yaradır. Məsələn: *da, də, dı, di, du, dü, ta, tə, tı, ti, tu, tü* və s. İkisəsli sözdüzəldici şəkilçilərdən də üç səsli şəkilçilər əmələ gəlir. Bu zaman qalın səsli şəkilçilərin sonuna *q*, incə səsli şəkilçilərin sonuna isə *k* samitləri qoşulur. Bu qayda istisnasız olaraq pozulmur. Məsələn: *daq, dək, dıq, dik, duq, dük, taq, tək, tıq, tik, tuq, tük.*

Bəzi dilçilər ikisəsli sözdüzəldici şəkilçilərin sonuna uyğun olaraq, q və k samitlərinin artırılması yolu ilə üçsəsli sözdüzəldici şəkilçilərin yarandığını bilmədiklərinə görə, sözlərin sonundakı *q* və *k* samitlərini sözdüzəldici şəkilçi adlandırırlar. Bu fikri ilk dəfə V.Radloff işlətmişdir. O bu fikri söyləyərkən türk dilinə bir alman düşüncəsiylə baxmışdır. V.Radloff türk dilini nə qədər yaxşı bilsə də, bu sahədə böyük işlər görsə də, həmin fikri söyləyərkən yanlışlığa yol vermişdir. Sonralar bu fikri V.Radloffdan Sevortyan götürmüşdür. Azərbaycan dilçilərinə bu fikir Sevortyandan gəlmişdir və kökündən yanlışıydı. Heca qanununa görə, türk dillərində bütün sözlər və şəkilçilər ən azı bir hecadan ibarətdir [13, s.27-33]. Tək samit səslər heca əmələ gətirmədiyinə görə, söz və şəkilçi ola bilmir.

## Əsas hissə / *Main Part*

Azərbaycan türkcəsində ikihecalı sözlərin ilk hecası istisnasız olaraq sözün köküdür. Q.Kazımov ikihecalı feillərin ilk hecalarının kök olduğunu müəyyənləşdirmişdir [8]. Şumer və türk dillərində bütün saitlər təklikdə sözdür və sonradan semantik yuvaya çevrilmiş söz kökləridir [6, s.14; 12, s.521-526; 15, s.38-40].

Azərbaycan dilində *da, də, dı, di, du, dü, ta, tə, tı, ti, tu, tü, daq, dək, dıq, dik, duq, dük, taq, tək, tıq, tik, tuq, tük* sözdüzəldici şəkilçiləri altı cür yazılır və burada onların köməyi ilə düzəlmiş sözlərə baxaq:

*Buğ+da=buğda*. Birdənli bitkinin adıdır. *Buğ* sözünə *da* sözdüzəldici şəkilçisi qoşulmaqla yaranıb. *Buğ* ayrıca söz kimi hazırda dilimizdə işlənir.

*Qu+da=quda* qohumluq bildirən termindir. Bu söz *qu* kökünə *da* sözdüzəldici şəkilçisi artırılmaqla alınıb. *Qu* sözünə söz, xəbər anlamında "Dədə Qorqud"da rast gəlinir: "...bir *qu* onlar dəxi gətirdilər" [9, s.23]. *Qu* həm də bir quşun adıdır.

*Qa+da=qada* dərd, qəm, azar-bezar bildirən sözdür. *Qa* kökünə *da* sözdüzəldici şəkilçisi qoşulmaqla əmələ gəlib. *Qa* bir söz kimi "Məlikməmməd" nağılında işlənib. Zümrüd quşu *qa* deyəndə Məlikməmməd ona ət verirdi.

*A+da=ada* coğrafiya terminidir. *A* sözün kökü, *da* ona qoşulmuş sözdüzəldici şəkilçidir. *A* hazırda dilimizdə söz kimi işlənir [6, s.14; 12, s.521-526; 15, s.38-40].

*Ya+da=yada* türklərdə yağış yağdırmaq üçün istifadə olunan daşın adıdır. Burada *ya* kökünə *da* sözdüzəldici şəkilçisi qoşulub.

*Ba+da=Bada* Şəmkir rayonunda kənddir. *Ba* sözün kökü, *da* sözdüzəldici şəkilçidir. *Ba*

sözü şumer və qədim türk dillərində bağır (qara ciyər), bağışlamaq, bağlamaq, barxana, barxac (bərə), Orxon–Yenisey abidələrində bağlamaq, *bağır* (qaraciyər), Mahmud Kaşğarlıda bağlamaq, hörmək [7, s.63] anlamlarında işlənmişdir.

*Bay+da=bayda* bir qabın adıdır. *Bay* söz kökünə *da* sözdüzəldici şəkilçisi qoşulmaqla əmələ gəlib. *Bay* qədim sözlərdən olub, türk dillərində varlı, dövlətli, zəngin anlamlarında indi də işlənir. Azərbaycan sözündəki *bay* hecası da həmin sözdür.

*Bər+də=Bərdə* Azərbaycanın qədim və böyük şəhərlərindən biridir. *Bər* sözün köküdür. Bər-bəzək, bərbər, bərk, bərklik, bərkitmə, bərdək (bir yerə toplanmış dərz qalağı) kimi sözlər ondan yaranıb. *Də* sözdüzəldici şəkilçisi ona qoşulub.

*Kün+də=kündə* çörək bişirərkən kəsilib yumrulanmış xəmirdir. *Kün* sözün köküdür. Şumer və qədim türkcədə xalq, el-oba anlamında müstəqil söz kimi işlənmişdir. Böyük Xalq şairi Səməd Vurğunun “Azərbaycan” şeirindəki “Elim, günüm, obam sənsən” misrasında *gün* sözü bugünkü anlamı yox, məhz xalq, el-oba anlamı bildirir. Ona bayan, kölə anlamında V.V.Radloffda rast gəlinir [5, s.17]. *Kün* kökünə *də* sözdüzəldici şəkilçisi qoşulmaqla kündə sözü alınıb.

*Pər+də=pərdə* sözü *pər* kökündən və *də* sözdüzəldici şəkilçisindən yaranıb. Pərdə sözünə ikinci *lik* sözdüzəldici şəkilçisini artıranda pərdəlik sözü alınır. *Pər* kökü hazırda müstəqil söz kimi dilimizdə saxlanıb.

*Ab+dı=Abdı* şəxs adıdır. Aşıq Abdı Qaymaqlı, Abdı Qoşqar və s. belə adlardır. *Ab* kökünə *dı* sözdüzəldici şəkilçisi qoşulmaqla yaranıb. *Ab* şumerdə Tanrı adı olub, açımı göy, səma deməkdir. Qədim türk dilində də *ab* sözü göy, səma anlamında işlənib. Xəzər dənizinin ilk adı *Absu* olub, *ab* və *su* sözlərinin birləşməsindən yaranıb. Hazırda mavi rəngin çalarlarından birinə *abı* deyilir. *Ab* sözünü farslar türk dilindən götürüb *su* anlamında işlətmişlər.

*Xın+dı=Xındı* şəxs adıdır. Xındı Məmməd Azərbaycanın adlı-sanlı el şairi, aşığıdır. *Xın* kökündən və *dı* sözdüzəldici şəkilçisindən əmələ gəlib. *Xın* söz kökünə Xınna (Tovuz və Gədəbəy rayonlarında bir böyük dərənin adıdır), xıncım, xıncırtı sözlərinin də kökündə rast gəlinir.

*Xın* kökü *hun* sözüylə yaxından səsləşir. Çox güman ki, *h/x* keçidilə *xın* kökü *hun* sözünün fonetik variantıdır. Bundan başqa, Xınna dərəsinə el arasında bəzən Hunnar dərəsi də deyilir.

*Qın+dı=qındı* Azərbaycanın bəzi bölgələrində horraya, süddə bişən sıyığa deyilir [2, s.514]. *Qın* kökünə *dı* sözdüzəldici şəkilçisi qoşulmaqla alınıb. *Qın* türk sözüdür. Xəncərin qını, qılıncın qını, tısbağanın qını və s. sözlərdə saxlanıb.

*Pər+di=pərdi* evin üstündəki atmaların arasına qoyulan taxtalardır. *Pər* kökündən və *di* sözdüzəldici şəkilçisindən ibarətdir.

*Xu+du=Xudu* şəxs adıdır. Görkəmli alimimiz Xudu Məmmədovu xatırlayın. Tovuzda məşhur saz düzəldən ustanın – sazbəndin adı Xuduydu. *Xu* kökündən və *du* sözdüzəldici şəkilçisindən alınıb.

*Xu* hecasının sözün kökü olduğu ilk baxışda şübhə doğura bilər. Çünki ona qədim yazılı qaynaqlarda müstəqil söz kimi rast gəlinmir və hazırda işlənmir. Lakin *du* hecasının sözdüzəldici şəkilçi olduğu şübhəsizdir. Ona görə burada belə bir nəzəri fikir söyləmək olar: Hər hansı bir sözün birinci hecasının sonuna müxtəlif sözdüzəldici şəkilçilər qoşulmaqla yeddidən çox yeni söz yaranırsa, o, mütləq kökdür və haçansa dildə müstəqil söz olub. Xu kökündən Xumar, xuda, Xudat, Xuduş, xul (balıq), xurcun, xurma, xuruş və s. kimi sözlər yaranıb. Bundan başqa, *xu* ayrıca söz kimi, xoy sözü ilə eyni anlamda “Azərbaycan dilinin orfoqrafiya lüğəti”nə də düşüb [4, s.310].

*Or+du=ordu*. Qədim türk dilində ölkəyə *ordu* deyilmişdir. “Dədə Qorqud”da da bu anlamda işlənmişdir: “*...ordun* üstünə kimi qorsan?” [9, s.31]. Bu gün *ordu* sözü yeni anlam qazanıb. *Or* söz kökünə *du* sözdüzəldici şəkilçisi qoşulmaqla əmələ gəlib.

*Or* sözünün qədim türkcədə “qırmızı ilə kəstanə arasında bir rəng” anlamında işləndiyini V.Radloff qeydə almışdır [5, s.46].

*Qo+du=qodu*. Azərbaycan folklorunda Novruz bayramında *Qodunu* çağırırlar. *Qodu* Günəşin adıdır. Şumer dilində Günəş tanrısının adı *Utudur*. *Utu* və *Qodu* sözləri fonetik baxımdan bir-birilə səsləşir. Onun yaranması

üçün *qo* kökünə *du* sözdüzəldici şəkilçisi qoşulub.

Qohum, qomarğa, qora, qonaq, qotaz, qoçu, qobu, qoduq, qoğal, qoxu, qoruq, qoşun, qotur, qovaq, qoza, qovuq isimlərinin hamısı *qo* kökündən və ayrı-ayrı şəkilçilərdən yaranıb. Q.Kazımov da onun kök olduğu fikrindədir [8, s.30].

*Hoy+du=hoydu* çağırış bildirən sözdür. Koroğlu bir şeirində dəliləri döyüşə "*Hoydu, dəlilərim, hoydu*" deyib çağırırdı. *Hoy* sözün kökü olub, təmiz türk sözüdür. "*Hoya* çatmaq", "*hoy* eləmək", "*hoya* çağırmaq", "*hoyuna* yetmək" deyimlərində hazırda işlənir. Ona *du* sözdüzəldici şəkilçisi artırılıb.

*Kür+dü=kürdü kür* söz kökünə *dü* sözdüzəldici şəkilçisi qoşulmaqla yaranıb. Küləcə sözünün sinonimidir. Onun kökü olan *kür* təmiz türk sözü olub, hazırda dilimizdə işlənir. Azərbaycandakı ən böyük çaylardan biri Kür adlanır.

Küləcə/*kürdü* boynuna, ətəyinə, yaxasına və qol yerlərinin kənarına xəz və s. tikilmiş qolsuz üst geyiminin adıdır. M.F.Axundovun, Aşıq Ələsgərin və Ə.Abbasovun əsərlərində küləcə şəklində işlənmişdir [3, s.125].

*Hü+dü-hü+dü* danışmaq. Tələsə-tələsə danışmaqdır. Tez-tez danışan adamlara "filankəs *hüdülüyüb* tökür" deyirlər. *Hü* sözün köküdür, ona *dü* sözdüzəldici şəkilçisi artırılıb.

Bunlar ikisəsli sözdüzəldici şəkilçilərin köməyiylə düzələn sözlərdir. Həmin şəkilçilərin sonuna uyğun olaraq *q* və *k* samitləri artırılanda üçsəsli sözdüzəldici şəkilçilər əmələ gəlir: *daq, dək, dıq, dik, duq, dük.* İndi onların köməyiylə yaranmış sözlərə baxaq:

*Bu+daq=budaq bu* söz kökünə *daq* sözdüzəldici şəkilçisi artırılmaqla yaranıb. *Bu* hazırda dilimizdə işlənən sözdür.

*Bar+daq=bardaq* bir su qabının adıdır. Hazırda dilimizdə işlənən *bar* kökündən və *daq* sözdüzəldici şəkilçisindən ibarətdir.

*Dov+daq=dovdaq* bir quşun adıdır. *Dov* kökünə *daq* sözdüzəldici şəkilçisi artırılmaqla alınıb. *Dov* türk sözüdür. Dilimizdəki "*dov* gəlmək" deyimi bunu aydın göstərir.

*Qun+daq=qundaq* uşağın bələyidir. Təmiz türk sözüdür. *Qu* kökündən və *daq* sözdüzəldici şəkilçisindən yaranıb. Məncə, sözün kökü *qu* hecasıdır, *n* bitişdirici samitdir. *Qu* sözünə həm yazılı qaynaqlarda, həm də şifahi nitqdə rast gəlinir.

*Do+daq=dodaq* insanın bədən üzvüdür. *Do* söz kökündən və *daq* sözdüzəldici şəkilçisindən əmələ gəlib. *Do* sözü hazırda dilimizdə işlənmir, lakin onun sonuna müxtəlif sözdüzəldici şəkilçilər artırılmaqla yeddidən çox söz əmələ gəlib: dolu, dolaq, donuq, donuş, donuz, dopu (qab), doru (rəng və at adı), doyum, doşab, doyurma, doyurmaq və s. [4, s.186-192].

*Dəv+dək=Dəvdək* eramızın ilk əsrlərində yaşamış türk şairidir. Böyük türk sərkərdəsi Cavanşirin ölümünə yazdığı poema gəlib bizə çatıb. Ad *dəv* söz kökündən və *dək* sözdüzəldici şəkilçisindən yaranıb. *Dəv* sözü hazırda dilimizdə işlənmir. Onun *dov* sözündən yarandığı düşünülə bilər. *Dov* sözü hazırda dilimizdə saxlanıb (dov gəlmək). *Dov* kökündən yeddidən çox söz düzəlib: dovğa, dovdaq, dovgəlmə, dovla (ov vasitəsi), dovşan, dovdüşmə, dovçəkən və s. Burada sözün kökü *də* hecası ola bilər. Onda *v* bitişdirici samitdir və sözün köküylə şəkilçinin arasına artırılıb. *V* bitişdirici samit kimi türk dilində çox işlənib.

*Öz+dək=Özdək* şəxs adıdır. "Türkün qızıl kitabı"nın yazarı Rəfiq Özdəkdir. *Öz* söz kökünə *dək* sözdüzəldici şəkilçisi artırılıb. *Öz* müstəqil söz kimi hazırda dilimizdə işlənir: *öz* adı, *öz* əsəri, *öz* yolu, *öz* dili və s.

*Cür+dək=cürdək* balaca su qabıdır. *Cür* söz kökündən və *dək* sözdüzəldici şəkilçisindən ibarətdir. *Cür* müstəqil söz kimi dilimizdə hazırda işlənir: bu *cür*, başqa *cür, cürbəcür* və s.

*Güz+dək=Güzdək güz* kökünə *dək* sözdüzəldici şəkilçisi artırılmaqla yaranıb. Bakıda kənddir. *Güzdək* sözü payızlıq, payız otlağı anlamındadır. Güzəm sözü payız yunu deməkdir.

*Güz* sözü qədim sözdür, payız anlamındadır. "Dədə Qorqud"da da işlənib: "*Güz* almasına bənzər al yanaqlım!" [9, s.20].

*Gər+dək=gərdək* sözünün anlamı hamıya aydındır. *Gər* kökündən və *dək* sözdüzəldici şəkilçisindən yaranıb. "Dədə Qorqud"da da işlənib: "Oğuz zamanında bir yigit ki, evlənsə ox atardı. Oxu nə yerdə düşsə anda *gərdək* tikərdi" [9, s.55].

*Gər* kökü hazırda dilimizdə saxlanıb, bir ağacın adıdır [4, s.260]. Onun təkrarlanması yoluyla Gərgər toponimi və gər-gər sözü yaranıb.

*San+dıq=sandıq* ev əşyasıdır. *San* kökünə *dıq* sözdüzəldici şəkilçisi qoşulub. San söz kimi hazırda dilimizdə saxlanıb: ad-san, adlı-sanlı və s.

*Fın+dıq=fındıq* bir ağacın və onun meyvəsinin adıdır. *Fın* kökündən və *dıq* sözdüzəldici şəkilçisindən ibarətdir. *Bu* sözün kökü *fı* ola bilər. *N* bitişdirici samiti köklə şəkilçinin bir-birinə bağlayıb. Q.Kazımov yazır: "Nəzərdən keçirdiyimiz 150-dən artıq sözdə güman olunan ilkin köklər bunlardır: bə, bi, bu, bü, pü, *fı*" [8, s.71].

*Dim+dik=dimdik* quşlarda olur. *Dim* sözün kökürdür. Ona *dik* sözdüzəldici şəkilçisi artırılıb. *Dimdik* isimdir.

*Dimdik* həm də sifətdir. "*Dimdik* durmaq". *Dim* kökü sözlərin əvvəlinə qoşulub şiddətlənmə dərəcəsi yaradır.

*Hə+dik=hədik* qarğıdalını (hərdən digər dənliləri də) suda bişirəndə *hədik* adlanır. *Hə* kökündən və *dik* sözdüzəldici şəkilçisindən yaranıb.

*Gə+dik=gədik* dağın üstündən yol aşan yerinə deyilir. *Gə* söz kökünə *dik* sözdüzəldici şəkilçisi qoşulub. Gə hecasının sözün kökü olduğu şübhəsizdir. Mahmud Kaşğarlıda *gə* sözü zərf ədatı kimi qeydə alınıb [7, s.197].

*Çim+dik=çimdik çim* kökünə *dik* sözdüzəldici şəkilçisi artırılıb. *Çim* türk sözüdür, bu gün də dildə işlənir. Otla birlikdə kəsilmiş torpağa *çim* deyilir.

*Çimdik* sözü iki anlamda işlənir. Bir adam adamı çimdikləyir. Bir də azacıq duza "bir *çimdik* duz" deyilir.

*Ov+duq=ovduq* bir milli yeməkdir. *Ovmaq* anlamlı *ov* kökündən və *duq* sözdüzəldici şəkilçisindən alınıb. *Ov* müstəqil söz kimi hazırda dilimizdə işlənir.

*Bu+duq=Buduq* həm etnonimdi, həm də Qubada kənddir. *Bu* söz kökünə *duq* sözdüzəldici şəkilçisi qoşulmaqla yaranıb. Təmiz türk sözüdür. *Bu* sözü hazırda dilimizdə şəxs əvəzliyidir.

*I+duq=ıduq* düzəltmə sözdür. *I* sözün kökü, *duq* sözdüzəldici şəkilçidir. Orxon-Yenisey abidələrində *ı* sözü meşə, *ıduq* sözü isə müqəddəs anlamlarında işlənib [10, s.72, 73].

*Ö+dük=ödük* sözü *ö* söz kökünə *dük* sözdüzəldici şəkilçisi artırılmaqla yaranıb. Orxon-Yenisey abidələrində *ödük* sözünə nəsihət, öyüd, *ö* sözünə isə duymaq, düşünmək, anlamaq anlamlarında rast gəlinir. Mahmud Kaşğarlı da *ö* sözünü anlamaq anlamında qeydə alıb [7, s.401].

*Dü+dük=düdük* milli musiqi alətidir. *Dü* kökündən və *dük* sözdüzəldici şəkilçisindən yaranıb. *Düdük* sözü "Dədə Qorqud"da da işlənib. "Ağzından, burnundan *düdük* kimi qan şorladı" [9, s.109].

Q.Kazımov yazır ki, *du//dü* düşünmək feilinin kökündür [8, s.32].

*Gü+dük=güdük* güdülən bir şeyə deyilir. *Gü* kökünə *dük* sözdüzəldici şəkilçisi artırılıb. *Gü* kökü hazırda ayrıca söz kimi dilimizdə işlənmir. Lakin Mahmud Kaşğarlıda feillərin əmr şəklinə əlavə edilərək zaman, yer və alət ismi bildirən ədat kimi qeydə alınıb [7, s.197].

*Ta, tə, tı, ti, tu, tü* və onların sonuna uyğun olaraq *q* və *k* samitlərinin artırılması yolu ilə əmələ gəlmiş üçsəsli *taq, tək, tıq, tik, tuq, tük* sözdüzəldici şəkilçiləri də altı cür yazılır. Onların köməyiylə yüzlərlə yeni sözlər yaranıb.

*Çan+ta=çanta. Çan* sözün kökürdür. Ona *ta* sözdüzəldici şəkilçisi qoşulub. M.Kaşğarlıda *ça, çə* hecaları bənzətmə ədatı kimi qeydə alınıb [7, s.124, 134]. Q.Kazımov çam, çağırmaq, çataşmaq, çalxamaq sözlərinin kökünün *ça* hecası olduğunu yazır [8, s.14, 36, 52]. Bu fikrin doğruluğunu qəbul etsək, onda *n* bitişdirici samitdir.

*Bal+ta=balta bal* kökünə *ta* sözdüzəldici şəkilçisi əlavə edilib. Şumer və qədim türkcədə balta sözü *bal* hecasından ibarət olub. *Bal* kökü müstəqil söz kimi hazırda dilimizdə işlənir.

*Xal+ta=xalta* itin boğazına bağlanan qayışdır. Zəncir xaltaya keçirilir. *Xal* sözün kökü, *ta* sözdüzəldici şəkilçidir. *Xal* kökü müstəqil söz kimi hazırda dilimizdə saxlanıb.

*Us+ta=usta us* kökündən və *ta* sözdüzəldici şəkilçisindən yaranıb. *Us* qədim türkcədə ağıl, huş, Orxon-Yenisey abidələrində quyruq, at quyruğu [10, s.332] anlamlarında işlənmiş sözdür. Mahmud Kaşğarlı onun xeyirlə şəri ayırd etmə, kərkəs quşunun adı, susmaq, sanmaq anlamlarında işləndiyini yazıb [7, s.610]. "Dədə Qorqud"da da işlənib: "*Ussu* yox, dərnəksiz

kafir" [9, s.41] cümləsi "ağlı yox, dərnəksiz kafir" deməkdir.

*A+ta=ata* sözündə *a* sözün köküdür. *Ta* sözdüzəldici şəkilçisi ona qoşulub.

*Kə+tə=kətə* milli yeməkdir. *Kə* kökündən və *tə* sözdüzəldici şəkilçisindən əmələ gəlib. *Kə* kökü hazırda müstəqil söz kimi dilimizdə işlənmir.

*Kə* kökü Azərbaycan türkcəsində çox məhsuldar olub, onun sonuna müxtəlif sözdüzəldici şəkilçilər artırılmaqla onlarla yeni söz yaranıb: kə+mər, kə+kil, kə+kə, kə+lə, kə+lək, kə+ləm, kə+ləf, kə+lin, kə+mik (sümük), kə+pək, kə+nək, kə+rə, kə+rən, kə+rəci (qayıq), kə+sər, kə+sək, kə+təbə, kə+təməz, kə+til, kə+hər və s. [4, s.347-352].

*Küf+tə=küftə* milli yeməkdir. *Küf* söz kökündən və *tə* sözdüzəldici şəkilçisindən yaranıb. *Küf* sözün köküdür və hazırda dilimizdə işlənir. "Küllüyü *küf* olmaq" deyimində bunu aydın görürük.

*Həf+tə=həftə* ayın yeddi gününün adıdır. *Hə(f)* söz kökündən və *tə* sözdüzəldici şəkilçisindən ibarətdir. *Həf* köküylə bağlı həftik sözünə bax.

*Ça+tı=çatı* heyvan bağlanan kəndirdi. *Ça* söz kökünə *tı* sözdüzəldici şəkilçisi qoşulmaqla alınıb. Ça hecasının kök olduğu heç bir şübhə doğurmur (Daha ətraflı çan+ta sözünə bax).

*Ba+tı=Batı* həm şəxs adıdır. Batı xanı xatırlayın. Həm də qərb sözünün türk dilindəki qarşılığıdır. *Bat* sözün kökü, *tı* ona qoşulmuş sözdüzəldici şəkilçidir. Burada *ba* hecasını sözün kökü hesab etmək yanlışdır. *Batı* sözü günbatan sözünün sinonimidir. Sonuncu sözün *bat* hissəsinə *tı* sözdüzəldici şəkilçisi artırılıb və bu zaman *t* samitləri qoşalaşdığına görə onun biri düşüb.

*A+ğar+tı=ağartı* bütün süd məhsullarına deyilir. *Ağar* düzəltmə sözünə *tı* sözdüzəldici şəkilçisi qoşulub.

*Qar+tı=qartı* keçədən hazırlanmış və daha çox çobanların geyindiyi isti üst paltarıdı. *Qar* kökünə *tı* sözdüzəldici şəkilçisi artırılmaqla yaranıb. *Qar* kökü hazırda dilimizdə müstəqil sözdür. *Qartı*nı daha çox qış aylarında, qarlı-çovğunlu günlərdə geyinirlər ki, onun *qar* kökündə bu anlam yaxşı görünür.

*Ba+ya+tı=bayatı* Azərbaycanda və Kərkükdə çox geniş yayılmış türk xalq şeirinin bir şəklidir. *Bayat* tayfasının adıyla bağlıdır. Sözün sonundakı *tı* sözdüzəldici şəkilçisi ona qoşularkan *Bayat* sözündəki *t* samiti düşmüşdür.

*Daş+al+tı=Daşaltı* Şuşa və Xankəndi yaxınlığında yer adıdır. Sözün sonundakı *tı* sözdüzəldici şəkilçidir.

*Pi+ti=piti* milli yeməkdir. *Pi* söz kökünə *ti* sözdüzəldici şəkilçisi qoşulmaqla yaranıb. *Pi, pa, pu* hecaları Şumer və qədim türk dillərində müstəqil söz olub, uca, yüksək anlamı bildirmişdir [15, s.299].

*Kərən+ti=kərənti* ot çalmaq üçün işlədilən alətdir. *Kərən* söz kökünə *ti* sözdüzəldici şəkilçisi qoşulmaqla alınıb. *Kərən* evin üstünə atılan yoğun ağaca deyilir. *Kərən* də düzəltmə söz olub, *kə* kökündəın və *rən* şəkilçisindən əmələ gəlib.

*Qu+tu=qutu qu* söz kökünə *tu* sözdüzəldici şəkilçisi artırılmaqla düzəlib.

*U+ğul+tu=uğultu* sözünün sonundakı *tu* hecası sözdüzəldici şəkilçidir. Türk dilində buna oxşar sözlər yetərincə çoxdur: *gurultu, zoqqultu, poqqultu, zarıltı, şırıltı, xırıltı, mırıltı* və s. *U* sözün köküdür. Ona əvvəlcə *ğul* (çuğul, oğul, noğul, soğul, boğul sözlərində olduğu kimi), sonra isə *tu* şəkilçisi qoşulub.

U şumer və qədim türk dillərində müstəqil söz olub [6, s.14; 12, s.521-526; 15, s.38-40], əsasən, *o* şəxs əvəzliyini bildirib. Bundan başqa, Orxon-Yenisey abidələrində yuxu, bacarmaq, olmaq [10, s.72, 74], Mahmud Kaşğarlıda uyğu, yuxu, gecikdirmək, qüdrətli, gücü yetmək [7, s.595] anlamlarında işlənib.

*Ü+tü=ütü ü* söz kökündən və *tü* sözdüzəldici şəkilçisindən yaranıb. Ü saitinin sözün kökü olduğu heç bir şübhə doğurmur. Ona Orxon-Yenisey abidələrində yığmaq, birləşdirmək [10, s.381] anlamlarında rast gəlinir.

*Ör+tü=örtü* sözündə *ör* sözün köküdür. Ona *tü* sözdüzəldici şəkilçisi artırılıb. Ör hecasının sözün kökü olduğu heç bir şübhə doğurmur. Mahmud Kaşğarlıda bu söz qaftanın qoltuq altları, çıxmaq, görünmək, qopmaq, yüksəlmək (bulud), hörmək anlamlarında qeydə alınıb [7, s.412].

*Tüs+tü=tüstü tüs* kökünə *tü* sözdüzəldici şəkilçisi qoşulmaqla alınıb.

*Ya+taq=yataq* həm evdə yatmaq üçün yerdir, həm də qış otlağındakı tikilidir. *Ya* kökünə *taq* sözdüzəldici şəkilçisi artırılmaqla düzəlib.

*Ça+taq=Çataq* Tovuz rayonunda kənddir. *Ça* kökündən və *taq* sözdüzəldici şəkilçisindən ibarətdir. *Ça* söz kimi hazırda dilimizdə işlənmir. M.Kaşğarlıda *ça, çə* hecaları bənzətmə ədatı kimi qeydə alınıb [7, s.124,134]. Q.Kazımov çam, çağırmaq, çataşmaq, çalxamaq sözlərinin kökünün *ça* hecası olduğunu yazır [8, s.14, 36, 52].

Çataq sözünün kökü *çat* da ola bilər. Bu halda sözün kökündəki *t* samiti düşür.

*Qay+taq=qaytaq* etnonimdir, qədim bir türk tayfasının adıdır. Daha çox qədim türk şəhəri olan Dərbənddə və Dağıstanın digər bölgələrində yaşayıblar. Həmin bölgələrdəki bəzi toponimlərdə bu ad saxlanmışdır. Qaytaqların haqqında heç bir araşdırma aparılmayıb, tamam unudulmuş tayfadır. *Qay* sözün kökü, *taq* ona qoşulmuş sözdüzəldici şəkilçidir.

*Qay* sözü hazırda dilimizdə işlənmədiyinə görə, onun kök olduğu ilk baxışda şübhə doğura bilər. Lakin onun məhsuldar kök olmağı və sonuna müxtəlif sözdüzəldici şəkilçilər artırılmaqla yeddidən çox sözün yaranması (qay+maq, qay+çı, qay+ğı, qay+sı, qay+da, qay+tağı, qay+naq, qay+saq, qay+nar, qay+ma (daş), qay+sava, qay+tan, qay+sar, Qay+tarma (saz havası), Qaybalı (şəxs adı), qay+ğanaq, qay+damak(lar), qay+tar(lar) (etnonim), qay+rılma, qay+naşma) bu şübhəni aradan qaldırır.

*Dus+taq=dustaq* sözünə "Dədə Qorqud"da da rast gəlinir. *Dustaq* sözü "Dədə Qorqud"da həm də *dutsaq* şəklində yazılmışdır ki, burada türk dili üçün səciyyəvi olan metateza baş vermişdir. Söz *dus* kökünə *taq* sözdüzəldici şəkilçisi qoşulmaqla yaranıb.

*O+taq=otaq* sözündə *o* kökdür, *taq* sözdüzəldici şəkilçisi ona birləşib. *Otaq* sözünə "Dədə Qorqud"da da tez-tez rast gəlinir.

*O* sözü şəxs və işarə əvəzliyi kimi hazırda dilimizdə saxlanıb. Onun kök olduğu heç bir şübhə doğura bilməz.

*Or+taq=ortaq or* kökünə *taq* sözdüzəldici şəkilçisi artırılmaqla düzəlib. *Or* söz kökünü V.V.Radloff qeydə almışdır.

*Tü+tək=tütək* musiqi alətidir. *Tü* sözün köküdür. Ona *tək* sözdüzəldici şəkilçisi qoşulub. Q.Kazımov *ta, tı, ti* hecalarının kök olduğu fikrindədir [8, s.15, 44, 46] ki, bu da *tü* hecasının kök olduğunu söyləməyə əsas verir. Bundan başqa, *tü* hecası türk dilində məhsuldar kök olub, onun sonuna müxtəlif sözdüzəldici şəkilçilər artırılmaqla yeddidən çox (onlarla) yeni söz yaranıb: tü+lək, tü+tək, tü+lü, tü+lüngü, tü+kənmə, tü+ləmə, tü+mən, tü+nük, tü+pürcək, tü+tün, tü+çək (Bu sözü *tüstü* sözünün *tüs* hecasına *çək* sözdüzəldici şəkilçisini artırmaqla mən düzəltmişəm. Dilin qaydalarına uyğun olaraq *s* samiti düşür. Tüstüçəkən anlamında olub, aspirator sözünün qarşılığı kimi yaranıb) və s.

*Pəl+tək=pəltək* yaxşı danışa bilməyən, dili dolaşan adamlara deyirlər. *Pəl* sözün köküdür. Bu gün də dilimizdə işlənir. Bir işə *pəl* vurmaq cümləsində olduğu kimi. Ona *tək* sözdüzəldici şəkilçisi artırılıb.

*Ə+tək=ətək* paltarın, dağın və s. aşağı hissəsinə deyilir. *Ə* kökünə *tək* sözdüzəldici şəkilçisi qoşulmaqla əmələ gəlib.

*Ə* səsi qədim dildə söz olub [6, s.14; 12, s.521-526; 15, s.38-40].

*Kö+tək=kötək kö* söz kökündən və *tək* sözdüzəldici şəkilçisindən ibarətdir. *Kö* sözü hazırda dilimizdə işlənmir, lakin bu onun söz kökü olduğunu inkar etmir. Q.Kazımov götürmək feilinin *kö* kökündən yarandığı fikrindədir [8, s.37]. Bundan başqa, *kö* hecası dilimizdə məhsuldar söz yuvası olub. Onun sonuna müxtəlif samit səslər qoşulmaqla kök, köy, köz, köç, həmçinin sözdüzəldici şəkilçilər artırılmaqla kö+bə, kö+kə, kö+kən, kö+lə, kö+ləcə, kö+məc, kö+mür, kö+kür, kö+mək, kö+nül, kö+pək, kö+pük, kö+rük, kö+tək, kö+tük, kö+şək, kö+zəmək kimi onlarla sözlər yaranıb [4, s.368-372].

*Qa+tıq=qatıq* bir ağartıdır. *Qa* kökünə *tıq* sözdüzəldici şəkilçisi qoşulub. Qa hecası dilimizdə məhsuldar söz köklərindən biridir.

*Mır+tıq=mırtıq* dişi düşmüş adama deyirlər. Burada *mır* sözün kökü, *tıq* ona qoşulmuş sözdüzəldici şəkilçidir. İtin çıxartdığı səsə *mır* deyilir.

*Çır+tıq=çırtıq* başqasına barmaqla yüngülcə toxunmaqdır. "*Çırtıq* vursan qanı çıxmaz" deyimində işlənib. *Çır* söz kökünə *tıq* sözdüzəldici şəkilçisi qoşulmaqla yaranıb.

*Yas+tıq=yastıq* balınc sözünün sinonimidir. *Yas* kökündən və *tıq* sözdüzəldici şəkilçisindən əmələ gəlib.

*Fıs+tıq=fıstıq* bir ağacın və onun meyvəsinin adıdır. *Fıs* kökünə *tıq* sözdüzəldici şəkilçisi artırılmaqla düzəlib. *Fıs* sözü hazırda dilimizdə *fıs* çıxmaq kimi bəzi deyimlərdə saxlanıb.

*Yır+tıq=yırtıq* sözündə *yır* kökdür. Ona *tıq* sözdüzəldici şəkilçisi əlavə edilib. *Yır/jır/sır* türk dillərində məğmə, mahnı, oxuyan, dastançı anlamlarında bu gün də işlənir.

*Qır+tıq=qırtıq qır* kökündən və *tıq* sözdüzəldici şəkilçisindən ibarətdir. Qır sözü hazırda dilimizdə müxtəlif anlamlarda işlənir: *qır*-saqqız olub yaxasından yapışmaq, xörəyi *qır* duz eləmək, *qır* basmaq və s.

*Çəl+tik=çəltik* düyünün bitkisidir. *Çə(l)* kökünə *tik* sözdüzəldici şəkilçisi artırılmaqla alınıb. Sözün kökü *çə* ədatıdır.

*Həf+tik=həftik* aptek sözünün Azərbaycan türkcəsindəki qarşılığıdır. Qərb bölgəsində indi də *həftik* sözünə rast gəlinir. Bu sözü xalq işlədir. Bəzi dilçilərə görə, *həftik* sözü aptekin fonetik variantıdır. Bu fikir yanlışdır, sözün necə yarandığını bilməməkdən irəli gəlir. Həftik və aptek sözləri fonetik baxımdan oxşar olsalar da, birinci ikincidən yaranmayıb. Sözün kökü *həb/həf* hecasıdır. Ona *tik* sözdüzəldici şəkilçisi qoşulub.

*Bi+tik=bitik* qədim türkcədə yazıya və kitaba deyilib. *Bi* kökünə *tik* sözdüzəldici şəkilçisi qoşulmaqla düzəlib.

*Bi* kökündən həm də bilik, bilim, bilici, birə, biçin, biçinçi, bilək, bibər, binə və s. sözlər yaranıb. *Bibi* sözü də onun təkrarı yoluyla əmələ gəlib. Bu sözlərdəki *bi* kökünü alınma sözlərin (bimar, binamus, bixəbər) ilk hecasıyla (*bi*) qarışdırmaq olmaz.

*Kər+tik=kərtik* ağacın kərtilmiş yeridir. *Kər* kökünə *tik* sözdüzəldici şəkilçisi birləşib. *Kər* kökündən *kərki, kərpic, kərkəs, Kərkük* sözləri də yaranıb.

*İ+tik=itik* itmiş bir şeyə deyilir. *Tik* sözdüzəldici şəkilçi, *i* sözün kökүdür. İ saiti qədim dildə söz olub [6, s.14; 12, s.521-526; 15, s.38-40].

*Qol+tuq=qoltuq* qolun altına deyilir. *Qol* sözünə *tuq* sözdüzəldici şəkilçisi artırılıb.

*Tu+tuq=tutuq* tutulmuş bir şeyə deyilir. *Tu* sözün kökүdür. *Tuq* sözdüzəldici şəkilçisi ona qoşulub. *Tutuq* sözünə Orxon-Yenisey abidələrində rütbə adı kimi rast gəlinir.

*U+tuq=Utuq* Ordubadda kənddir. *U* sözün kökүdür. Ona *tuq* sözdüzəldici şəkilçisi artırılıb.

*Kö+tük=kötük*. Kəsilmiş yoğun ağacın yerində qalan hissəsinə *kötük* deyilir. *Kö* söz kökündən və *tük* sözdüzəldici şəkilçisindən yaranıb.

*Ü+tük=ütük* sözü M.Kaşğarlının “Divan”ında qusma anlamında işlənib [7, s.14]. *Ü* sözün kökүdür, ona *tük* sözdüzəldici şəkilçisi artırılıb.

*Müş+tük=müştük* papiros çəkmək üçün işlədilir. *Müş* sözün kökü, *tük* ona qoşulmuş sözdüzəldici şəkilçidir.

*Ör+tük=örtük* bir şeyi örtmək üçün işlədilən parçadır. *Ör* kökünə *tük* sözdüzəldici şəkilçisi qoşulmaqla düzəlib.

## Nəticə / *Conclusion*

Yuxarıdakı sözlərin çoxu isimdir. Burada ona görə isimlər seçilmişdir ki, sözdüzəldici şəkilçilərin altı cür yazıldığını sübut etmək üçün onların köməyiylə isimlərin düzəlməsi birinci şərtdir.

Yuxarıdakı örnəklərin çoxunun ilk hecası müstəqil söz kimi hazırda dildə işlənir. Güz, çim, bu, bul, bal, xal, us, müf, daş, ağ, bay, yal, qol, gərmə belə sözlərdir. Lakin yuxarıdakı sözlərin bir neçəsi hazırda dildə işlənmir. Lakin onlara müstəqil söz kimi “Dədə Qorqud”da (qo, qu, qun, dün, gu), Orxon-Yenisey abidələrində (ab, ar, ba, bi, bor, bök, bul, ik, ir, id, yi/ye, ki, kü, kün, kab, kur, ko, ı, o, öd, sı, te/ti, tu, tüs, u, uy, us, ü), Mahmud Kaşğarlının “Divan”ında (a, ar, ba, bi, buğ, bük, bün, ə, əm, gə, gü, xun, ka, kı, kü, mun, ö, öd, ör, sa, sı, şa, tu, tü, u, us və s.) rast gəlinir. Digər sözlərin də məhsuldar kök olduğunu onların köməyiylə yaranmış sözlər aydın göstərir.

Göründüyü kimi, bir çox sözdüzəldici şəkilçilər Azərbaycan dilində altı cür yazılır. *Da, də, dı, di, du, dü, ta, tə, tı, ti, tu, tü* və onların sonuna *q, k* samitləri qoşulmaqla yaranmış *daq, dək, dıq, dik, duq, dük, taq, tək, tıq, tik, tuq, tük* belə şəkilçilərdir.

**Ədəbiyyat / *References***

1. Araslı, H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri (Çapa hazırlayanı: Məryəm Axundova). – Bakı, 1998.
2. Azərbaycan dilinin izahlı lüğəti. IV cilddə, I cild. (Tərtibçi: Ə.Ə.Orucov). – Bakı, 1964.
3. Azərbaycan dilinin izahlı lüğəti. IV cilddə, III cild. (Tərtibçilər: B.T.Abdullayev, Ə.Ə.Orucov, M.Ş.Şirəliyev). – Bakı, 1983.
4. Azərbaycan dilinin orfoqrafiya lüğəti. 6-cı nəşr (Redaktor və ön sözün müəllifi: İsmayıl Məmmədli. Filologiya elmləri doktoru, professor). – Bakı, 2013.
5. Dr. Vilhelm Radloff. Türklerin kökleri, Dilleri ve Halk edebiyyatı. II kitab. – Ankara, 1999.
6. Əhmədov, B. Azərbaycan dili şivələrində fono-semantik söz yaradıcılığı. – Bakı: BDU nəşriyyatı, 1994.
7. Kaşğari, M. Divanü-Lüğat-it-Türk. IV cild (Tərcümə edəni Ramiz Əsgər). – Bakı, 2006.
8. Kazımov, Q. Azərbaycan dilində ikihecalı sadə feillər. – Bakı, 2018.
9. “Kitabi-Dədə Qorqud” (Tərtib edəni H.Araslı). – Bakı: Gənclik, 1978.
10. Rəcəbov, Ə., Məmmədov, Y. Orxon-Yenisey abidələri. – Bakı, 1993.
11. Sadıq, İ. “Şumer və türk dillərində ilk sözlər və səs artımı yolu ilə söz yaradıcılığı”/ Dilçilik İnstitutunun Əsərləri, №1. – Bakı, 2018.
12. Sadıq, İ. “Şumer və türk dillərində eyni semantik söz yuvaları”/ Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadovun xatirəsinə həsr olunmuş “Müasir şərqşünaslığın aktual problemləri” (“Ziya Bünyadov qiraətləri”) mövzusunda Beynəlxalq Elmi Konfransın (16-17 oktyabr 2017-ci il, Bakı) Materialları. – Bakı, 2018.
13. Sadıq, İ. “Türk dilində Heca qanunu” / Sivilizasiya, №1. – Bakı, 2016.
14. Sadıq, İ. Azərbaycan dilində sözdüzəldici şəkilçi yaradan saitlər / Filologiya və sənətşünaslıq, № 2. – Bakı, 2021.
15. Sadıq, İ. Tanrı dili, Türk dili, Şumer dili. – Bakı: Azərnəşr, 2020.
16. Şükürlü, Ə. Qədim türk yazılı abidələrinin dili. – Bakı, 1993.

## Словообразующие аффиксы, образованные из двух или трех звуков, в азербайджанском языке

**Ислам Садыг**
Доктор филологических наук
Институт языкознания имени Насими НАНА. Азербайджан.
E-mail: islamsadiq1953@yahoo.com

**Резюме.** В азербайджанском языке новые слова образуются разными путями. Соединение согласных к гласным в начале и в конце корня, повторение и перемещение слогов, соединение простых слов, присоединение к корням словообразующих аффиксов и др. больше используются в словообразовании.

Азербайджанский язык очень богат словообразующими аффиксами. Ясно видно, что в основе словообразования стоит присоединение к корням словообразующих аффиксов. Слова, образующиеся этим путем, занимают большое место в лексическом фонде азербайджанского языка.

В данной статье впервые показывается, что ряд словообразующих аффиксов в азербайджанском языке пишется в шести видах. Показывается, что словообразующие аффиксы daq, dək,

dıq, dik, duq, dük, taq, tək, tıq, tik, tuq, tük преобразованы путем прибавления согласных звуков *г* и *к* к концу словообразующих аффиксов da, də, dı, di, du, dü, ta, tə, tı, ti, tu, tü. На основе многих примеров доказывается, что с помощью этих аффиксов образованы много слов.
**Ключевые слова:** азербайджанский язык, словообразующий аффикс, аффиксы, написанные в шести видах, словообразование